2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 108 milyon 711 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır.

Xarici ticarət dövriyyəsinin 98 milyon 117 min 200 ABŞ dollarını, yaxud 90,3 faizini ixrac, 10 milyon 594 min 400 ABŞ dollarını, yaxud 9,7 faizini idxal təşkil etmiş, 87 milyon 522 min 800 Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.